## AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# İqtisadiyyata giriş

***( 6 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***

***Müəllim:Əlifov Yaqub Feyzulla oğlu***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 116
**İş nömrəsi: 268 94 53**
**Mob**: 070 240 24 47
**İş saatları: 8 00 – 16 00**
**E-mail: yaqubalifov @ gmail.kom**

**Müəllim Əlifov Vüsal Yaqub oğlu**
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 116
**İş nömrəsi: 268 94 53**
**Mob**: 055 252 81 96
**İş saatları: 8 00 – 16 00**
**E-mail: elifovvüsal @ gmail.com**

**GƏNCƏ-2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda ənənəvi forma vasitəsi ilə keçiriləcək:

Bazar ertəsi, 15:10-16:30(mühazirə)
Çərşənbə axşamı ,16:50-18:10 (seminar)

## *Fənnin təsviri*

Bu fənnində biz iqtisadiyyat nədir və iqtisadi proseslərin öyrənilməsinin özəlliklərini müəyyənləşdirəcəyik. , iqtisadiyyat – özünəməxsus qanunları və problemləri, faciələri və ziddiyyətləri olan xüsusi bir dünyadır. İqtisadi aləm sanki sonu görünməyən bir dedektiv əsərə bənzəyir.Buradatəsadüfi hadisələr və proseslər qanunauyğunluq “donuna” girir, qanunauyğunluqlar isə təsadüflər tərəfindən rədd edilir.

. İqtisadiyyatdan kənar olmaq mümkün deyil. Axı qiymətlər, əmək haqqı, işsizlik, inflyasiya, pul,istehlak,vergilər və s. kimi iqtisadi hadisələr bizim həyatımızın tərkib hissəsidir və bu problemlərin hər bir insanın rifahına bilavasitə təsir göstərməsi bizdə maraq doğurmaya bilməz.Bu baxımdan, “İqtisadi nəzəriyyə” çox faydalı elmdir. İqtisadi nəzəriyyə–insanları mövcud iqtisadi vəziyyəti düzgün təhlil etməyə, əhatə olunduqları reallıqları dərk etməyə yönəldən, düzgün seçim və qərarlar qəbul etməyi öyrədən elmdir.

İqtisadi nəzəriyyə üç bölmədən ibarətdir: iqtisadiyyata giriş, mikroiqtisadiyyat və makroiqtisadiyyat.İqtisadi nəzəriyyə elminin bütövlükdə dərindən dərk edilərək öyrənilməsi iqtisadi proseslərin məntiqini və mexanizmini, qanunauyğunluqlarını anlamağa kömək etməklə yanaşı,oxucularda iqtisadi təfəkkürü formalaşdıraraq inkişaf etdirir. Lakin təcrübə göstərir ki, istənilən elmdə olduğu kimi iqtisadi nəzəriyyəni anlamaq üçün ilk növbədə, oxucu zəruri ilkin anlayışlarla, kateqoriyalarla, elmi prinsiplərlə,vacib olan metodlarla silahlanmalıdır.İqtisad elminin əsasında duran bu ilkin anlayışları dərindən yiyələndikdən sonra, onun əsas bölmələri olan mikro və makro səviyyəsində daha mürəkkəb proseslərin məntiqinin, onların səbəb və nəticələrinin necə baş verdiyini öyrənmək Sizin üçün çox asan və rahat olacaq.

Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:

- bazar iqtisadiyyatının həm mikro, həm də makro səviyyədə fəaliyyətinin prinsipləri və qanunları haqqında ümumi təsəvvür yaratmaq;
- iqtisadi təhlilin spesifikası ilə tanış etmək;
- əsas iqtisadi kateqoriyaların, əmtəə, pul, bazar, tələb, təklif, tarazlıq, səmərəlilik, rəqabət, inhisar, inflyasiya, işsizlik və s. kimi anlayışların məzmununu açmaq;
- ən mühüm əmsalların, indeks və göstəricilərin hesablanma vərdişlərini aşılamaq;
- müxtəlif bazar strukturlarında və müxtəlif bazarlarda qiymətin əmələ gəlməsi spesifikası ilə tanış etmək;
- əlavə informasiya mənbələri ilə işləməyi öyrətmək.
- iqtisadi nəzəriyyəni öyrənməyə başlayan birinci kurs tələbələrində iqtisadi hadisələri və prosesləri anlamaq, onun spesifik cəhətlərini dərk etməkdən ötrü bu elmin ilkin anlayışları və konsepsiyalarıilə tanış etmək;
- mikro və makroiqtisadiyyatda baş verən mürəkkəb hadisələri müəyyənləşdirmək və düzgün təhlil etmək üsulları haqqında obyektiv mənzərə yaratmaq;
- tələbələrdə iqtisadi təfəkkürü formalaşdırmaq,mürəkkəb iqtisadi reallıqların məntiqi təhlil etmə bacarığını öyrətmək və malik olduqları bilikləri real həyatda tətbiq etmək qabiliyyətini yaratmaq;
- tələbələrdə iqtisadçı kimi düşünmə və hərəkət etmək qabiliyyətini formalaşdırmaq.

## *Planlaşdırlan təlim nəticələri*

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

• iqtisadiyyata baxışların təkamülü. Buna görə də fənnin hər bir mövzusu, bir qayda olaraq, həmin problem üzrə iqtisadi fikrin işıqlandırılmasından başlayır;

• iqtisadi nəzəriyyənin əsas metodoloji müddəalarını dərk etmədən müasir aləmi başa düşmək mümkün deyil;

• yaranışdan obyektiv olaraq insana verilmiş fiziki aləmdən (təbiətdən) fərqli olaraq insanla bağlı iqtisadi sistemlərin təhlilinə. İnsan bu sistemin mərkəzi, nüvəsi olur. İqtisadiyyat insansız, onun tələbatları və maraqları nəzərə alınmadan mövcud ola bilməz. Lakin ayrı-ayrı iqtisadi sistemlərdə insan davranışının öz spesifikası var;

• beynəlxalq tələblərə müvafiq olaraq iqtisadi nəzəriyyə kursuna mütləq bütün bölmələrin («modulların») salınmasına;

• yaranmış iqtisadi vəziyyəti düzgün qiymətləndirmək məqsədilə dünya təcrübəsindən, ələlxüsus, həmin problemin müxtəlif ölkələrdə vəziyyətinə.

•iqtisadi nəzəriyyənin baza kateqoriyaları sayılan tələbatların sonzuzluğu, iqtisa-

di resurslar və onların məhdudluğunun iqtisadiyyatın formalaşmasındakı rolu;

- insanın iqtisadiyyatda davranışının prinsipləri, yaranan alternativ seçimin əhəmiyyətini və mövcud olan "insan modeli" nəzəriyyələri;
- başqa elmlərdəki kimi bu elmin özünəməxsus obyektiv kateqoriyaları və qanunları;

iqtisadiyyatın iştirakçılarının fəaliyyətinin son məqsədi olan gəlirlərin mənbəyi malik olduqları resurslardır və hər bir resurs gəlirlərin müvafiq formasının yaranması;

- bazar sisteminin yaranmasında mülkiyyət münasibətlərinin xüsusi yeri və təhlili;
- İqtisad elminin "təməl daşı" sayılan və mübadiləni təmin edən əmtəənin dəyərinin formalaşması, pulun yaranması, tarixi təkamülü formaları və müasir dünyadakı rolu;
- ictimai əmək bölgüsünün bazarın yaranmasında rolunu, bazar sisteminin formalaşmasında isə onun zəruri prinsipləri, bazar sisteminin elementləri sayılan tələb,təklif,qiymət və rəqabət anlayışlarının təhlili və onlar arasındakı qarşılıqlı əlaqənin nə qədər mükəmməl olmasını əyani şəkildə qrafik vasitəsi ilə təsviri;
- bazarda tarazlığın yaranma qanunauyğunluqlarının təhlili.

*Fənn üçün 75 saat (5 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftədə iki saat mühazirə, hər iki həftədən bir dörd saatlıq (2 saatı hər həftə, iki saat isə alt –üst həftə olmaqla )seminar var.*

## *Fənnin tematik təqvimi*

| Mövzular | Müh | Sem. |
|---|---|---|
| **Bölmə I. İnsanın iqtisadi dünyası** | | |
| Mövzu 1. İqtisadiyyat nədir? | 2 | 4 |
| Mövzu 2. İnsan modeli iqtisadi nəzəriyyənin elmi qurluşunun əsası kimi | 2 | 2 |
| **Bölmə 2. İqtisadi nəzəriyyənin predmeti və metodlerı** | | |
| Mövzu 3.İqtisad elminin yaranma mərhələləri və predmeti | 2 | 2 |
| Mövzu 4. İqtisadi nəzəriyyənin funksiyaları və metodları | 2 | 2 |
| **Bölmə 3.İqtisadiyyatın əsasları** | | |
| Mövzu 5. İqtisadi resursların mahiyyəti. İstehsal amilləri və amil | 2 | 4 |

| | | |
|---|---|---|
| gəlirləri<br>Mövzu 6.Cəmiyyətin istehsal imkanları və onun sərhədləri | 2 | 2 |
| **Bölmə 4.Mülkiyyət münasibətləri və iqtisadi sistemlər**<br>Mövzu 7. Mülkiyyət münasibətləri və mülkiyyət hüququ.<br>İqtisadi sistem<br>Mövzu 8. Transaksiya xərcləri | 2<br>2 | 4<br>2 |
| **Bölmə 5.Əmtəə və pulun iqtisadi nəzəriyyəsi**<br>Mövzu 9.İqtisad elminin təməl daşı.Klassik və neoklassik məktəblərin dəyər nəzəriyyəsi<br>Mövzu 10.Pulun mahiyyəti və tarixi formalarının təkamülü | 2<br>2 | 4<br>3 |
| **Bölmə 6.Bazar iqtisadiyyatının ümumi əsasları**<br>Mövzu 11. Bazarın yaranmasının ilkin şərti və prinsipləri<br>Mövzu 12 .Tələb və təklif qanunu. Onların qrafik təhlili | 2<br>2 | 2<br>4 |
| **Bölmə 7.Bazar tarazlığı qanunu**<br>Mövzu 13. Bazar tarzlığının yaranma mexanizmi<br>Mövzu 14. Bazarın qurluşunun tipləri | 2<br>2 | 2<br>4 |
| **Bölmə 8.Bazar iqtisadi sisteminin çatışmazlıqları**<br>Mövzu 15. Bazarın iflası və dövlətin iqtisadi siyasəti | 2 | 4 |
| **Cəmi :** | **30** | **45** |

## *Mühazirənin quruluşu*

Mühazirə 80 dəqiqə müddətə nəzərdə tutulub . Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 75% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

***Tövsiyə olunan ədəbiyyat***


1.N.Qreqori Mənkyu,- Ekonomiksin əsasları Thomson 2007

2.Əzizağa Haqverdiyev, Vüsal Həsənov – İqtisad Dərs vəsaiti .Bakı 2017.

3..Oliviyer Blanşard Makroiqtisadiyyat

4.M.C.Atakişiyev, H.M.Abbasov -Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010

5.T.S.Vəliyev, Ə.P.Babayev, H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001

6.H.M.Meybullayev -Mikroiqtisadiyyata giriş- Bakl-2010

7.İqtisadi nəzəriyyə Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik "Daşkov və K" nəşriyyatı Moskva 2008

8..O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə -Dərs vəsaiti. Bakı- 2010

9.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010

10.O.Məmmədov,Y.F.Əlifov –İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə-2003

11.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010.

12.J.Harvey, R.Joyusev –Müasir ekonomiks 8-ci nəşr Bakı-2008.

13. "Müəssisələr haqqında" AR-nın qanunu.1 iyul 1994-cü il.

14 İqtisadi nəzəriyyə. Dərslik Çağoğlu nəşriyyatı Bakı 2001.

15. O. Məmmədov. İqtisadi nəzəriyyə.Dərs vəsaiti. Gəncə 2004.

16. Курс экономическая теории. Под реакцией Чепурина М. Н. Киселевой Е.А. Киров 1995

17. Общая экономическая теория, ( Курс лекций) Москва 1994.

18. П. Самуелсон. Экономика. Москва 2014.

19. К. Макконнелл, С. Брю, Экономикс Азярняшр 2014.

20. N.Qreqori Mənykyu. Ekonomiksin əsasları, III nəşr, 2007

## *Əlavə resurslar*

1. https://president.az/articles/50474
2. Strateji yol xəritəsi

3. http://www.economy.gov.az/
4. http://agro.gov.az/
5. https://www.usda.gov/
6. https://bigfuture.collegeboard.org
7. https://www.britannica.com/topic/farm-management
8. https://www.sciencedirect.com/topics/
9. www.fao.org